# KİÇİK LEYTENANT ABBASOV SEYMUR MÜŞFİQ OĞLU



Kiçik leytenant Abbasov Seymur Müşfiq oğlu 20 may 2000-ci ildə Xanlar şəhərində anadan olmuşdur. 2017-ci ildə SHXÇDX-nin Göygöl şəhər şöbəsi tərəfindən hərbi xidmətə çağırılıb. 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunmuşdur. 2020-ci ilin sentyabr ayının sonunda düşmənin törətdiyi təxribat nəticəsində Azərbaycan Ordusunun əks hücum əməliyyatı zamanı Müdafiə Nazirinin müvafiq əmrinə əsasən ona kiçik leytenant hərbi rütbəsi verilərək cəbhə bölgəsinə göndərilmiş və bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini təyin olunmuşdur.

Zabit kimi xidmət etdiyi qısa müddət ərzində Vətən Müharibəsində göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra “Vətən uğurunda”, “Şuşanın azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif olunmuşdur.

2020-ci ilin oktyabr ayında torpaqlarımızın erməni qəsbkarlarının işğalından azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına **şəhid** olmuşdur.

Subay idi.